# Mahmud Kaşğarinin "Divani lüğət-it-türk" əsərinin 950 illik yubileyi qeyd ediləcək

**İyunun 3-də Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutunda Mahmud Kaşğarinin "Divani lüğət-it-türk" (Türk dillərinin izahlı lüğəti) əsəri etnoqrafik mənbə kimi" adlı "dəyirmi masa" keçirilib.**



İnstitutun elmi işlər üzrə direktor müavini İlqar Niftəliyev bildirib ki, Mahmud Kaşğari "Divani lüğət-it-türk" əsərini öz dövrünün ədəbi dili sayılan Xaqaniyyə dilində yazıb, burada 26 türk dialektində söz və nümunələr əksini tapıb.

Vurğulanıb ki, Kaşğari türk dili, tarixi, coğrafiyası, folkloru və mifologiyası ilə bağlı ədəbi xəzinə yaradıb. Türk Dövlətləri Təşkilatı çərçivəsində siyasi, iqtisadi, sosial və mədəni əlaqələrin genişləndiyini vurğulayan tarix elmləri doktoru deyib ki, Mahmud Kaşğari sanki min il əvvəl Şərqdə gedən siyasi hadisələrin mənzərəsini aydın görüb, bu proseslərin inkişaf istiqamətini böyük uzaqgörənliklə duyub.

Tarix elmləri doktoru Güllü Yoloğlu bildirib ki, Mahmud Kaşğari 700 səhifəlik əsəri üzərində təqribən 15 il işləyib, onu 1083-cü ildə tamamlayıb. Natiq onu da vurğulayıb ki, "Divani lüğət-it-türk"ün 950 illik yubileyi 2024-2025-ci illərdə UNESCO çərçivəsində qeyd olunacaq tədbirlər siyahısına daxil edilib. Bu haqda qərar UNESCO-nun Baş Konfransının 42-ci sessiyasında verilib.

Çıxış edənlər bildirib ki, Mahmud Kaşğari atalar sözləri və şeirlərdən istifadə edib və bu baxımdan türk dillərinin zənginləşməsinə böyük töhfə verib.

Vurğulanıb ki, "Divani lüğət-it-türk" əsəri türk dillərinin tarixi inkişafını, leksikologiyasını öyrənməkdə, müqayisəli qrammatikasını tərtib etməkdə ilkin mənbələrdən biridir.

---

Azərbaycan.- 2024.- 5 iyun (№ 177).- S.15.